

Cahanbəxş Qoldust

## Qala bilmirəm

Dünyada qalacaq dünyanın malı,
Özü bir dünyadır aşiqin halı,
Qırmızı yanaqlar, buxaqda xalı,
Yadıma düşəndə qala bilmirəm,
Bu dərdin tabını ala bilmirəm.

İnana bilmirəm atıbsan məni,
Kürüyüb küləşə qatıbsan məni,
Deyirlər özgəyə satıbsan məni,
Yanıram, yanıram, qala bilmirəm,
Qolumu boynuna sala bilmirəm.

Mehrabı səcdədir qaşın arası,
Piyalə gözlərin gözün qarası,
On dördün gecəsi bir Ay parası,
Sapsarı tellərin çala bilmirəm,
Qalıram, qalıram, qala bilmirəm.

Ayrılıq salanın gülləri sola,
Mən razı deyiləm gözlərin dola,
Mən öləm, sarıtel saçların yola,
Sevgilim süzülüb bala, bilmirəm,
Odlara qalandım, qala bilmirəm.

Yel yetirsin sarı telə sözümü,
Ya öldürsün, ya bağlasın gözümü,
Mən aşiqəm, itirmərəm özümü,
Cahanı gözlərdən ala bilmirəm,
Qurtarıb dözümüm, qala bilmirəm.

## Ana

Laylalar səsinə qurbanam, Ana,
Mən səni incidib gətirdim cana,
Yadıma düşəndə ürəyim yana,
Gərəkdir başına dolanım, Ana,
Sənə qurban ola olanım, Ana!

Gecəni yatmadın, oldun keşiyim,
Ürəyin başıdır mənim beşiyim,
Sən isti yatağım, evim, eşiyim,
Dayan, bir başına dolanım, Ana,
Sənə qurban ola olanım, Ana!

Dünyanın ləzzəti “Ana” sözündə,
Öldürür baladan ötrü özün də,
Bir damla yaş olan ana gözündə,
“Can” deyən başına dolanım, Ana,
Sənə qurban ola olanım, Ana!

Sən getdin, ay Ana, yandı ürəyim,
Yıxıldım sərvi tək, sındı dirəyim,
Anamın adıdır duzum, çörəyim,
Gündə mən başına dolanım, Ana,
Sənə qurban ola olanım, Ana!

Anamın laylası düşüb yadıma,
Cahanın adını qoyub adına,
Odlandım, ay Ana, tez gel dadıma,
Rüxsət ver, başına dolanım, Ana,
Sənə qurban ola olanım, Ana!

## Ata

Atadır şöhrətim, şanım,
“Ata” adı ləyaqətdir,
Ataya xoş baxın hər an,
Ona baxmaq ibadətdir.

Sorağın vədə yerlərdən,
Danışsın sazlı dillərdən,
Opüm qasnaqlı əllərdən,
Əlin öpmək rişadətdir.

Savalandan uca dağdır,
Balaya bağçadır, bağdır.
Şəkər şərbət, sözü yağdır,
Ata güldən lətafətdir.

Əli yansa bala atmaz,
Balasın dünyaya satmaz,
Ataya dünya da çatmaz,
Bu bir sonsuz hekayətdir.

Dağı-daşı əkər-tökər,
Gecə-gündüz zəhmət çəkər,
Görmədim heç ola pekər,
Başdan-başa nəzakətdir.

Kim atanı ata bilər,
Ata dərdin ata bilər,
Özün oda ata bilər,
Bala bilsə kifayətdir.

Kaş yuxuma bir gələsən,
Mənimlə deyib güləsən,
Cahanın gözün siləsən,
Səni öpsəm ziyarətdir.

Kredo 2019.- 18 dekabr.- S.15.